# İŞĞALDAN AZAD OLUNMUŞ RAYONLARDA QUŞÇULUĞUN İNKİŞAF PRESPEKTİVLƏRİ

**Mahir Hacıyev**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi Tədqiqat İnstitutu, mahirhaciyev@mail.ru*

Qarabağ bölgəsinin təbii-iqlim şəraiti, eləcə də yerləşdiyi areal bu yerlərdə heyvandarlığın bütün sahələrinin, həmçinin quşçuluğun inkişaf etdirilməsinə imkan yaradır.

Heyvandarlığın tezyetişən sahələrindən hesab edilən quşçuluğun inkişaf etdirilməsi bu sahə ilə məşğul olan orta və kiçik sahibkarlara az müddət ərzində daha çox məhsul istehsal etməyə imkan yaradacaq, eyni zamanda əhalinin quş ətinə və əmtəəlik yumurtaya olan tələbatını ödəyəcəkdir.

Əlbəttə, quşçuluğun inkişafı üçün bu sahəyə yeni innovasiyaların gətirilməsi, mövcud olan elmi nailiyyətlərin tətbiqi çox vacibdir. Heyvandarlığın digər sahələrində olduğu kimi, quşçuluq sektorunda da damazlıq-seleksiya işləri zootexniki tədbirlərin vahid sistemi olmaqla bu sahədə fəaliyyət göstərən müəssisələrin idxaldan asılılığının azalmasına imkan yaradır.

Quşçuluqda intensivləşmənin aparılması üçün bu sahədə damazlıq işinin təşkili və yaxşılaşdırılması işindən başlamaq lazımdır. Buraya damazlıq işinin planı, sürü dövriyyəsi, seleksiya damazlıq proqramının hazırlanması daxildir. Bunun üçün sürünün quruluşu düzgün təşkil edilməli, təkrar istehsalın mexanizmi hazırlanmalıdır. Belə olan halda yüksək məhsuldar quş cinslərin (Leqqorn, Xayseks Braun və s.), xətt (Dominant Susseks, Dominant Leqqorn və s.) və krossların (Kobb 500, Ross 308) sayını sürətlə artırmaq, qısa müddət ərzində onlardan yüksək keyfiyyətli və daha çox miqdarda məhsul almaq olar.

Əsas məsələlərdən biri quşçuluq təsərrüfatlarında intensiv inkişafın təşkili, təsərrüfatın inkubasiya yumurtasına olan tələbatını lazımınca təmin edə biləcək xüsusi damazlıq quş sürüsünun yaradılmasıdır. Seleksiya qrupu üçün seçilən quşlar yüksək məhsuldar olmalıdır. Yalnız seleksiya damazlıq işləri lazımi səviyyədə təşkil edildikdə bu sahədən daha çox məhsul əldə etmək imkanı yaranır. Burada, quşların saxlanma şəraiti və yemləmənin düzgün təşkili də əsas götürülməlidir. Quşların saxlanması zamanı mikroiqlimə nəzarət, profilaktiki işlərin aparılması, yemləmə, baxım sahəsinə nəzarət, istehsalın, emalın və qablaşdırılmanın mexanikləşdirilməsi vacib amillər hesab edilir.